AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

Az1008, Bakı şəhəri,
Xətai prospekti, 49

Tel.: +994 12 599 11 55, Faks: +994 12 496 06 47
e-mail: office@edu.gov.az

"08" 05 2021 il                                                  № 04-26-5411/15

**Ali, orta ixtisas və peşə təhsili müəssisələrinin rəhbərlərinə**

Bildiyiniz kimi, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2021-ci il 4 may tarixli 129 nömrəli qərarı ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2020-ci il 13 aprel tarixli 138 nömrəli qərarına dəyişiklik edilmiş və Azərbaycan Respublikasının təhsil müəssisələrində normativ təhsil müddətində ödənişli əsaslarla əyani təhsil alan və sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin 2020/2021-ci tədris ilinin yaz semestri (yarımili) üçün təhsil haqqı xərclərinin dövlət büdcəsinin vəsaiti hesabına ödənilməsi nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikasının Təhsil Nazirliyi https://e-telebe.edu.az elektron portalı vasitəsi ilə sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin dövlət tərəfindən ödənilməsinə dair müraciətlərin qəbulunu **19 may 2021-ci il tarixindən** aktivləşdirir.

2020/2021-ci tədris ilinin payız semestri (yarımili) üçün təhsil haqqı xərcləri dövlət tərəfindən ödənilməsi həyata keçirilən tələbələrinin 2020/2021-ci tədris ilinin yaz semestri (yarımili) üçün təhsil haqqı xərclərinin dövlət tərəfindən ödənilməsi ilə bağlı https://e-telebe.edu.az elektron portalına **müraciət etmələri tələb olunmur.** Belə ki, həmin tələbələrin 2020/2021-ci tədris ilinin payız semestri (yarımili) üçün sistemdəki müraciətləri əsas götürülərək onların 2020/2021-ci tədris ilinin yaz semestri (yarımili) üçün sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olması statusu elektron informasiya sistemi tərəfindən **avtomatik rejimdə yoxlanılacaq, hüququ olan tələbələr üçün təhsil haqqı xərcləri təhsil müəssisələrinə ödəniləcək və bu barədə tələbələrə SMS məlumat göndəriləcəkdir.**

Sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olmasına baxmayaraq sistemə müraciət etməyən və ya bu statusu yeni əldə edən tələbələr 2020/2021-ci tədris ilinin

yaz semestri (yarımili) üçün təhsil haqqı xərclərinin dövlət tərəfindən ödənilməsi ilə bağlı https://e-telebe.edu.az elektron portalına **mütləq qaydada müraciət etməlidirlər.**

http://e-telebe.edu.az elektron portalı vasitəsi ilə tələbələrin təhsil haqqı xərclərinin dövlət tərəfindən ödənilməsinə dair müraciətlərin qəbulu isə **iyun ayının 7-dək** aktiv olacaqdır.

Göstərilənləri nəzərə alaraq təhsil müəssisələrindən:

- rəsmi internet səhifələrində elektron ünvan (https://www.e-telebe.edu.az) göstərilməklə müvafiq **elanın yerləşdirilməsi** və **tələbələrin məlumatlandırılması;**

- tələbələrin sistemdəki müraciətlərinə müəyyən edilmiş qaydada baxılması, hüquq yaranan tələbələri üzrə **müraciətlərin təsdiq edilməsi**, müraciətlər təsdiq edildikdən sonra vəsaitin köçürülməsinə dair **sifariş üçün siyahıların formalaşdırması** və **sifarişin rəsmi qaydada Təhsil Nazirliyinə təqdim edilməsi** xahiş olunur.

**Hörmətlə,**

**nazir müavini** **İdris İsayev**